İCBARİ
TİBBİ SIĞORTA

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin

## 2019-cu il üzrə fəaliyyətinə dair

# HESABAT

its.gov.az

**Mündəricat**


1. Giriş .... 2
2. Normativ hüquqi aktlar .... 2
3. Tibbi statistik göstəricilər .... 3
4. Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində yeniliklər .... 12
   4.1. Tibbi xidmətlər .... 12
   4.2. Təlimlər .... 12
5. Pilot ərazilərdə səhiyyə xərcləri .... 14
6. İctimaiyyətlə əlaqələr .... 14
   6.1. Maarifləndirmə .... 14
   6.2. Ağdaş rayonunda ümumi əhali arasında sorğu .... 16
7. Vətəndaş müraciətlərinə baxılması .... 16
8. Beynəlxalq əməkdaşlıq .... 18
   8.1. Layihələr .... 18
   8.2. Beynəlxalq təcrübənin öyrənilməsi .... 18
9. İnkişaf perspektivləri .... 19
   9.1. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə hazırlıq işləri .... 19
   9.2. İnsan resursları üzrə hazırlıq işləri .... 20

## 1. Giriş

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanına əsasən fəaliyyətə başlamış, 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" (bundan sonra – Agentlik) publik hüquqi şəxs yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli və 2018-ci il 16 fevral tarixli 1830 nömrəli Fərmanlarına əsasən Agentlik tərəfindən icbari tibbi sığorta (bundan sonra – İTS) pilot layihə şəklində 1829 tibbi xidməti əhatə edən baza zərfi əsasında həyata keçirilmişdir.

Pilot layihə Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərinə (bundan sonra – pilot ərazilər) şamil olunmuşur. Layihə müddətində əhalidən sığorta haqqı tutulmamışdır. Pilot ərazilərdə dövlət səhiyyə sisteminə daxil olan qurumlar (Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin şöbələri, sanitariya və epidemioloji xidmət, əczaçılıq və tibbi təhsil müəssisələri, habelə psixonevroloji və narkoloji dispanserlər istisna olmaqla) layihə başa çatanadək Agentliyin tabeliyinə verilmişdir.

Hazırkı hesabat Agentliyin 2019-cu il üzrə fəaliyyəti haqqındadır. Hesabatda pilot layihənin yekunları, habelə əvvəlki ildə ölkənin İTS sistemi ilə bağlı vəziyyəti və inkişaf perspektivləri əks olunmuşdur.

## 2. Normativ hüquqi aktlar

2019-cu ildə Agentliyin fəaliyyətinə dair aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

- Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə"də dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 yanvar tarixli 491 nömrəli Fərmanı;
- "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanı;
- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2019-cu il tarixli 520 nömrəli Fərmanı;
- "Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı;
- "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 3 dekabr 2019-cu il tarixli Qanunu;
- "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında"

Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 dekabr tarixli 898 nömrəli Fərmanı;

- "Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 895 nömrəli Fərmanı;
- "İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 504 nömrəli Qərarı;
- Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin strukturu"nda və "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 910 nömrəli Fərmanı.

## 3. Tibbi statistik göstəricilər

2019-cu ildə pilot ərazilərdə ambulator-poliklinik gəlişlərin sayı 2018-ci illə müqayisədə 26% artaraq 1,4 milyon, adambaşına düşən həkimə gəlişlərin sayı isə 4 olmuşdur. Evə yazılan xəstələrin sayı 11% artaraq 23 888, cərrahi əməliyyatların sayı isə 8% artaraq 10 060 təşkil etmişdir. Çarpayıda keçirilən günlərin orta sayı 4,6-dan 4,2-yə qədər azalmışdır. Evə yazılan xəstələrin 58%-i, cərrahi əməliyyatların isə 72%-i Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının payına düşmüşdür.

Tibbi statistik göstəricilərdə baş vermiş dəyişikliklərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

Pilot ərazilər üzrə tibbi statistik məlumatlar, 2019-cu il *

| № | Göstəricilər | Mingəçevir şəhəri | Yevlax rayonu | Ağdaş rayonu | Pilot ərazilər |
|---|---|---|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2019) | 105 400 | 128 500 | 109 900 | 343 800 |
| 2 | Həkimlərin sayı | 280 | 164 | 120 | 564 |
| 3 | Orta tibb işçilərinin sayı | 740 | 311 | 547 | 1 598 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 542 842 | 413 209 | 423 166 | 1 379 217 |
| 5 | Stasionar qəbul | 14 069 | 4 907 | 5 279 | 24 255 |
| | Evə yazılan xəstələrin sayı | 13 917 | 4 731 | 5 240 | 23 888 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 60 065 | 20 471 | 19 526 | 100 062 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 4,3 | 4,3 | 3,7 | 4,2 |
| 6 | Cərrahi əməliyyatların sayı | 7 186 | 1 031 | 1 843 | 10 060 |
| 7 | Çarpayıların sayı | 300 | 237 | 170 | 707 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 56% | 24% | 32% | 39% |

**Mingəçevir şəhəri üzrə Psixonevroloji və Narkoloji dispanser, Uşaq Nevroloji Sanatoriyası və Hemodializ şöbəsinin tibbi statistik məlumatları, Yevlax və Ağdaş rayonları üzrə Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

Pilot ərazilər üzrə hemodializə dair statistik məlumatlar, 2019-cu il

| № | Göstəricilər | Mingəçevir şəhəri | Yevlax rayonu | Ağdaş rayonu | Pilot ərazilər |
|---|---|---|---|---|---|
| 1 | Dializ aparatlarının sayı | 10 | 10 | 10 | 30 |
| 2 | Keçirilmiş hemodializlərin sayı | 8 008 | 7 497 | 7 980 | 23 485 |







Pilot ərazilər üzrə tibbi statistik məlumatlar, 2016-2019-cu illər *

| № | Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2019) | 334 800 | 337 800 | 340 600 | 343 800 |
| 2 | Həkimlərin sayı | 684 | 601 | 567 | 564 |
| 3 | Orta tibb işçilərinin sayı | 1 868 | 1 720 | 1 677 | 1 598 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | - | 861 123 | 1 091 996 | 1 379 217 |
| 5 | Stasionar qəbul | 19 322 | 23 224 | 21 728 | 24 255 |
| | Evə yazılan xəstələrin sayı | 19 089 | 22 755 | 21 454 | 23 888 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 224 188 | 158 567 | 99 028 | 100 062 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 11,7 | 7,0 | 4,6 | 4,2 |
| 6 | Cərrahi əməliyyatların sayı | 6 880 | 9 645 | 9 346 | 10 060 |
| 7 | Çarpayıların sayı | 1 249 | 907 | 707 | 707 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 50% | 49% | 33% | 39% |

**Mingəçevir şəhəri üzrə Psixonevroloji və Narkoloji dispanser, Uşaq Nevroloji Sanatoriyası və Hemodializ şöbəsinin tibbi statistik məlumatları, Yevlax və Ağdaş rayonları üzrə Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*







Pilot ərazilərdə tibb müəssisələrinin idarəedilməsinin təkmilləşdirilməsi, çarpayı sayının optimallaşdırılması və göstərilən tibbi xidmətlərin sayının artması nəticəsində məhsuldarlıq artmışdır. Belə ki, 2016-cı illə müqayisədə 2019-cu ildə evə yazılan xəstələrin sayı 25%, cərrahi əməliyyatların sayı isə 46% artmışdır. Hər həkimə düşən evə yazılan xəstələrin sayı 1,5 dəfə artaraq 2016-cı ildə 27,9-dan 2019-cu ildə 42,4-ə qədər yüksəlmişdir. Hər çarpayıya düşən evə yazılan xəstələrin sayı isə 2,2 dəfə artaraq 2016-cı ildə 15,3-dən 2019-cu ildə 33,8-ə qədər yüksəlmişdir.

Mingəçevir şəhəri üzrə tibbi statistik məlumatlar, 2016-2019-cu illər*

| № | Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2019) | 102 400 | 103 200 | 104 500 | 105 400 |
| 2 | Həkimlərin sayı | 378 | 307 | 290 | 280 |
| 3 | Orta tibb işçilərinin sayı | 880 | 797 | 774 | 740 |
| 4 | Stasionar qəbul | 10 596 | 14 637 | 13 023 | 14 069 |
| | Evə yazılan xəstələrin sayı | 10 519 | 14 413 | 12 881 | 13 917 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 100 839 | 70 142 | 51 240 | 60 065 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 9,6 | 4,9 | 4,0 | 4,3 |
| 5 | Cərrahi əməliyyatların sayı | 5 094 | 7 475 | 6 914 | 7 186 |
| 6 | Çarpayıların sayı | 612 | 300 | 300 | 300 |
| 7 | Çarpayıdan istifadə olunma əmsalı | 45% | 65% | 47% | 56% |

**Psixonevroloji və Narkoloji dispanser, Uşaq Nevroloji Sanatoriyası və Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*




Mingəçevir şəhər Mərkəzi Xəstəxanasında 2016-cı illə müqayisədə 2019-cu ildə evə yazılan xəstələrin sayının 32%, cərrahi əməliyyatların sayının isə 41% artmasına baxmayaraq, çarpayıda keçirilən günlərin orta sayı 2,2 dəfə azalaraq 9,6 gündən 4,3 günə qədər enmişdir.

Yevlax rayonu üzrə tibbi statistik məlumatlar, 2016-2019-cu illər*

| № | Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2019) | 125 700 | 126 700 | 127 400 | 128 500 |
| 2 | Həkimlərin sayı | 184 | 169 | 158 | 164 |
| 3 | Orta tibb işçilərinin sayı | 442 | 374 | 350 | 311 |
| 4 | Stasionar qəbul | 3 509 | 3 378 | 3 992 | 4 907 |
| | Evə yazılan xəstələrin sayı | 3 382 | 3 264 | 3 832 | 4 731 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 56 499 | 23 190 | 18 829 | 20 471 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 16,7 | 7,1 | 4,9 | 4,3 |
| 5 | Cərrahi əməliyyatların sayı | 420 | 799 | 788 | 1 031 |
| 6 | Çarpayıların sayı | 267 | 237 | 237 | 237 |
| 7 | Çarpayıdan istifadə olunma əmsalı | 60% | 33% | 22% | 24% |

**Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*




Yevlax rayon Mərkəzi Xəstəxanasında 2016-cı illə müqayisədə 2019-cu ildə evə yazılan xəstələrin sayı 40%, cərrahi əməliyyatların sayı isə 2,5 dəfə artmış, çarpayıda keçirilən günlərin orta sayı 3,9 dəfə azalaraq 16,7 gündən 4,3 günə qədər enmişdir.

Ağdaş rayonu tibbi statistik məlumatlar, 2016-2019-cu illər *

| № | Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2019) | 106 700 | 107 900 | 108 700 | 109 900 |
| 2 | Həkimlərin sayı | 122 | 125 | 119 | 120 |
| 3 | Orta tibb işçilərinin sayı | 546 | 549 | 553 | 547 |
| 4 | Stasionar qəbul | 5 217 | 5 209 | 4 713 | 5 279 |
| | Evə yazılan xəstələrin sayı | 5 188 | 5 078 | 4 741 | 5 240 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 66 850 | 65 235 | 28 959 | 19 526 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 12,9 | 12,8 | 6,1 | 3,7 |
| 5 | Cərrahi əməliyyatların sayı | 1 366 | 1 371 | 1 644 | 1 843 |
| 6 | Çarpayıların sayı | 370 | 370 | 170 | 170 |
| 7 | Çarpayıdan istifadə olunma əmsalı | 50% | 46% | 29% | 32% |

**Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*




Ağdaş rayon Mərkəzi Xəstəxanasında 2016-cı illə müqayisədə 2019-cu ildə evə yazılan cərrahi əməliyyatların sayı isə 35% artmış, çarpayıda keçirilən günlərin orta sayı 3,5 dəfə azalaraq 12,9 gündən 3,7 günə qədər enmişdir.

Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində evə yazılan xəstələrin əsas xəstəlik sinifləri üzrə bölgüsü, 2016-2019-cu illər

Əsas xəstəlik sinifləri üzrə statistik göstəricilərin təhlili göstərir ki, Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində xəstəliklər arasında əsas yeri hamiləlik, doğuş və zahılıq dövrü ilə bağlı müraciətlər tutmuş. Doğuşun fizioloji proses olduğunu nəzərə alsaq, pilot ərazilərdə əhalinin əsas xəstəliklərini tənəffüs, həzm, qan dövranı və sidik-cinsiyyət sistemi xəstəlikləri təşkil etmişdir. 2016-cı illə müqayisədə 2019-cu ildə tənəffüs sistemi xəstəliklərində 44%, həzm sistemi xəstəliklərində 31%, qan dövranı sistemi xəstəliklərində isə 65% artım müşahidə olunmuşdur. Buna dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur:

| Xəstəlik sinifləri | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Hamiləlik, doğuş və zahılıq dövrü | 5581 | 6484 | 6223 | 6326 |
| Tənəffüs sistemi xəstəlikləri | 2839 | 4470 | 4238 | 4076 |
| Həzm sisteminin xəstəlikləri | 2496 | 3671 | 3166 | 3263 |
| Qan dövranı sistemi xəstəlikləri | 2140 | 2551 | 2860 | 3526 |
| Sidik-cinsiyyət sisteminin xəstəlikləri | 1089 | 1480 | 1324 | 1362 |
| Digər xəstəliklər | 4944 | 4099 | 3643 | 5335 |

Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində evə yazılan xəstələrin əsas xəstəlik sinifləri üzrə bölgüsü, 2019-cu il

Tibb müəssisələrinin 2019-cu ildə stasionar fəaliyyətinin 26%-ni hamiləlik, doğuş və zahılıq dövrü, 17%-ni tənəffüs sistemi xəstəlikləri, 22%-ni isə digər xəstəliklər təşkil etmişdir. Buna dair məlumat aşağıdakı diaqramda əks olunmuşdur:



2019-cu ildə hamiləlik, doğuş və zahılıq dövrü ilə bağlı müraciətlərin 49%-i, tənəffüs sistemi xəstəliklərinin 59%-i, digər xəstəliklərin isə 68%-i Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının payına düşmüşdür. Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində evə yazılan xəstələrin əsas xəstəlik sinifləri üzrə bölgüsü aşağıdakı diaqramda əks olunmuşdur:




<u>Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində həyata keçirilən cərrahi əməliyyatlar, 2016-2019-cu illər</u>

İTS-nin tətbiqindən sonra tibb müəssisələrinin cərrahiyyə fəaliyyətində artım müşahidə olunmuşdur. Belə ki, 2016-cı illə müqayisədə 2019-cu ildə həzm sistemi üzrə əməliyyatlar 70%, mama-ginekoloji əməliyyatlar 35%, oftalmoloji əməliyyatlar isə 1,9 dəfə artmışdır. 2019-cu ildə bütün cərrahi əməliyyatların 44%-ni həzm, 26%-ni mama-ginekoloji, 14%-ni isə digər əməliyyatlar təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəl və diaqramda əks olunmuşdur:

| **Əməliyyatlar** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|
| Həzm sistemində əməliyyatlar | 2627 | 4035 | 3839 | 4474 |
| Mama-ginekoloji əməliyyatları | 1967 | 2711 | 2587 | 2657 |
| Otolarinqoloji əməliyyatları | 1403 | 1665 | 1444 | 1208 |
| Oftalmoloji əməliyyatlar | 196 | 197 | 449 | 365 |
| Digər əməliyyatlar | 687 | 1037 | 1027 | 1356 |

Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində həyata keçirilən cərrahi əməliyyatlar, 2019-cu il




Pilot ərazilər üzrə təcili və təxirəsalınmaz tibbi yardım gedişlərinin sayı, 2016-2019-cu illər

İTS-nin tətbiqi nəticəsində vətəndaşların tibbi xidmətlərə əlçatanlığının artması təcili və təxirəsalınmaz tibbi yardım çağırışlarının ümumi sayında da öz əksini tapmışdır. Belə ki, 2016-cı illə müqayisədə 2019-cu ildə təcili və təxirəsalınmaz tibbi yardım gedişləri Mingəçevir şəhəri üzrə 44% faiz, Yevlax rayonu üzrə 70% artmışdır. 2019-cu ildə Mingəçevir şəhəri üzrə təcili və təxirəsalınmaz tibbi yardım gedişlərinin sayı pilot ərazilərdə ümumi gedişlərin sayının 65%-ni təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur:

| Tibb müəssisəsi | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Mingəçevir şəhər Mərkəzi Xəstəxanası | 34294 | 40593 | 45081 | 49532 |
| Yevlax rayon Mərkəzi Xəstəxanası | 8740 | 14041 | 15198 | 14855 |
| Ağdaş rayon Mərkəzi Xəstəxanası | 22097 | 25711 | 12583 | 11785 |
| **Pilot ərazilər** | **65131** | **80345** | **72862** | **76172** |

Özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələri tərəfindən göstərilmiş tibbi xidmətlər, 2019-cu il

Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində ixtisaslaşdırılmış tibbi xidmətlərin göstərilməsi mümkün olmadıqda özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrinə göndəriş əsasında sığortaolunanlara 4955 müraciət üzrə ümumilikdə 15078 sayda tibbi xidmət göstərilmişdir. Göstərilmiş xidmətlərin bölgüsü 63,18% ürək-damar cərrahiyyəsi, 7,24% neyrocərrahiyyə, 1,07% travmatologiya, 7,75% urologiya, 13,69% oftalmologiya, 0,60% ginekologiya/doğuş, 2,15% ümumi cərrahiyyə və 4,32% digər sahələrdə olmaqla ümumi dəyəri 4093,16 min manat təşkil etmişdir. Qeyd edilməlidir ki, sözügedən xidmətlər Agentliklə müqavilə əsasında bir sıra özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələri tərəfindən göstərilmişdir. Göstərilmiş xidmətlərin aid olduğu xəstəlik sinifləri üzrə bölgüsü aşağıdakı diaqramda əks olunmuşdur:




## 4. Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrində yeniliklər

### 4.1. Tibbi xidmətlər

2019-cu ildə Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon Mərkəzi Xəstəxanalarında göstərilən tibbi xidmətlərdə bir sıra yeniliklər baş vermişdir. Belə ki, Mingəçevir şəhər Mərkəzi Xəstəxanasında Bakterioloji laboratoriya təşkil edilmiş, fakoemulsifikasiya (FAKO) texnologiyası ilə katarakta əməliyyatları və Covidien LigaSure (LS) texnologiyası ilə mini invaziv əməliyyatlar həyata keçirilmişdir.

Yevlax rayon Mərkəzi Xəstəxanasının təcili yardım bölməsində triaj sistemi qurulmuş, tibbi xidmətin əlçatanlığının təmin edilməsi məqsədilə 2 yeni Ailə Sağlamlıq Mərkəzi (müvafiq olaraq Balçılı və Nərimanabad kəndlərində) yaradılmış və kadr potensialının gücləndirilməsi məqsədilə yeni həkimlər işə cəlb edilmişdir. Həmçinin xəstəxana laporaskop cihazı ilə təchiz edilmişdir.

Ağdaş rayon Mərkəzi Xəstəxanasının laboratoriya şöbəsində tam avtomatlaşdırılmış analizatorlar quraşdırılmış, vətəndaşların elektron qeydiyyatı təşkil olunmuş, təcili yardım bölməsində triaj sistemi qurulmuş, İnfeksiyaya Nəzarət Komitəsi yaradılmış və mavi kod sistemi qurulmuşdur. Bunlarla yanaşı, yeni həkimlər işə cəlb olunmuş və uroloji xəstəliklər üzrə xidmət göstərilməsinə başlanılmış, habelə Şıxlı kəndindəki Ailə Sağlamlıq Mərkəzi tam təmir olunaraq yenidən vətəndaşların istifadəsinə verilmişdir.

### 4.2. Təlimlər

Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon Mərkəzi Xəstəxanalarının tibb heyətlərinin bilik və bacarıqlarının artırılması məqsədilə 2019-cu ildə tədbirlər görülmüşdür. Belə ki, səhiyyə mütəxəssislərinin sertifikasiyasından qanunvericiliklə nəzərdə tutulmuş qaydada 78 nəfər həkim və 377 nəfər orta tibb işçisi keçmişdir. Bununla yanaşı, 71 nəfər həkim və 113 nəfər orta tibb işçisi ölkə daxilində, 1 nəfər həkim isə ölkə xaricində – Çin Xalq Respublikasında – müvafiq təlim keçmişdir.

## 5. Pilot ərazilərdə səhiyyə xərcləri

Ümumilikdə 2019-cu ildə pilot layihə çərçivəsində səhiyyə xərclərinin maliyyələşdirilməsinə 42 290,40 min manat vəsait sərf edilmişdir ki, bu vəsaitin 34 593 min manatı Agentliyin tabeliyinə verilmiş tibb müəssisələrinin (ilkin səhiyyə xidməti daxil olmaqla), 4 346,41 min manatı pilot ərazilərdə göstərilməsi mümkün olmayan baza zərfinə daxil olan tibbi xidmətlər üçün Agentliklə müqavilə əsasında fəaliyyət göstərən tibb müəssisələrinin, 3 350,99 min manatı isə əvəzləşdirilə bilinməyən və dövlət büdcəsinə geri qaytarılmış əlavə dəyər vergisinin payına düşür.

**2018-2019-cu illərdə pilot layihə çərçivəsində səhiyyə xərclərinin maliyyələşdirilməsinə sərf olunan vəsaitin**

min manat

| Tibb müəssisələri | 2018-ci il | 2019-cu il |
|---|---|---|
| Mingəçevir ŞMX | 13 675,61 | 16 731,35 |
| Yevlax RMX | 7 352,42 | 8 628,60 |
| Ağdaş RMX | 5 893,31 | 9 233,05 |
| Özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələri | 2 307,89 | 4 346,41 |
| Əvəzləşdirilə bilinməyən və dövlət büdcəsinə geri qaytarılmış əlavə dəyər vergisi | 3 431,16 | 3 350,99 |
| **Cəmi** | **32 660,39** | **42 290,40** |

## 6. İctimaiyyətlə əlaqələr

### 6.1. Maarifləndirmə

Əhalini, tibb müəssisələrinin rəhbərlərini, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı təşkilatlarının əməkdaşlarını və sahibkarları Agentliyin fəaliyyəti, İTS-nin 2020-ci ildən ölkə üzrə mərhələli tətbiqi, habelə sistemin əhəmiyyəti, üstünlükləri barədə məlumatlandırmaq, ictimaiyyətdə Agentliyin nüfuzunu yüksəltmək və qurum haqqında müsbət rəy formalaşdırmaq məqsədilə 2019-cu ildə Agentlik tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, İTS mövzusunun mediada işıqlandırılmasını təmin etmək məqsədilə 78 sayda məlumat (press-reliz/xəbər/açıqlama/elan) hazırlanmış və kütləvi informasiya vasitələri (bundan sonra – KİV) ilə yayımlanması təmin olunmuşdur. Agentliyə KİV-dən daxil olmuş 268 sayda informasiya sorğusu, habelə qurumun sosial şəbəkələrdəki səhifələrinə daxil olan 1931 sayda sorğu müvafiq qaydada cavablandırılmışdır.

Bununla yanaşı, onlayn mediada 7368 material dərc edilmiş, 31 televiziya, radio və internet televiziya kanalında İTS mövzusunda 334 veriliş/süjet yayımlanmışdır.

İTS-nin tanıtımı məqsədilə çəkilmiş sosial reklam çarxı, həkimlərin İTS-nin tətbiqinə dəstək videoları (6 sayda) televiziya kanallarında, Agentliyin rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində yayımlanmışdır.

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər və vətəndaşları İTS sahəsində ən çox maraqlandıran mövzular nəzərə alınaraq, Agentliyin rəsmi internet səhifəsi (www.its.gov.az) yeni məzmun və dizaynda istifadəyə verilmişdir. Saytın yeni versiyasının müasir dizaynla tərtib edilməsi ilə yanaşı, strukturuna da yeni bölmələr əlavə edilmişdir. Belə ki, saytın 1-ci səhifəsi 4 altbölmədən ibarət tərtib edilmişdir. Bura sığortaolunanların hüquq və vəzifələri, TƏBİB (“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyinə verilən tibb müəssisələrinin siyahısı), baza zərfi və İTS haqqının hesablanması üçün kalkulyator adlı altbölmələr yerləşdirilmişdir. Həmçinin saytın Agentlik bölməsinə qurumun filialları

barədə məlumat yerləşdirilmişdir. Saytın yuxarı panelində açar sözü yazıb lazım olan məlumatı əldə etmək məqsədilə axtarış bölməsi, aşağı panelində isə "Abunə olun" xidməti yaradılmışdır. Sayta ümumilikdə 69360 nəfər istifadəçi daxil olmuşdur.

Agentlik sosial şəbəkələrdə də aktiv fəaliyyət göstərmişdir. Belə ki, qurumun "Facebook" səhifəsində 408, "Instagram"-da 199, "Twitter"-də 337, "Linkedin"-də 304 post paylaşılmış, "YouTube" kanalında isə 349 video yerləşdirilmişdir. Bu videolara Agentlik tərəfindən hazırlanmış 26 sayda sosial video və animasiya çarxlar da daxildir.

İTS çərçivəsində tibb müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görüləcək tədbirlərlə bağlı həmin müəssisələrin rəhbər heyətini və Səhiyyə İşçiləri Həmkarlar İttifaqı təşkilatlarının əməkdaşlarını məlumatlandırmaq məqsədilə Agentlik tərəfindən 2019-cu ilin 12 fevral, 11 və 12 aprel tarixlərində görüşlər keçirilmişdir. Görüşlərdə 160-a yaxın tibb müəssisəsinin rəhbəri və 110-a yaxın Səhiyyə İşçiləri Həmkarlar İttifaqı təşkilatının əməkdaşları iştirak etmişdir.

2019-cu ilin 2 may tarixində Agentliyin təşəbbüsü və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "İcbari tibbi sığorta sistemində sahibkarların (işəgötürənlərin) rolu: sığortalan və sığortala" mövzusunda görüş keçirilmişdir. Görüşdə 40 sahibkar iştirak etmişdir.

Əhalini İTS barədə məlumatlandırmaq məqsədilə ölkənin bir sıra regionlarında maarifləndirici tədbirlər təşkil olunmuşdur. Belə ki, 2019-cu ilin 12-13 iyul tarixlərində Quba və Qusar, 5-8 avqust tarixlərində Balakən, Zaqatala Qax, , Şəki, Oğuz və Qəbələ rayonlarında əhalinin müxtəlif qrupları ilə müvafiq görüşlər keçirilmişdir. Həmin vaxtda qanunvericiliyə təkrar olaraq dəyişikliklərin edilməsi gözlənildiyi üçün bir müddət tədbirlərin keçirilməsi təxirə salınmışdır.

2019-cu ilin 3 dekabr tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklərdən sonra isə əhalinin bu barədə məlumatlandırılması məqsədilə sözügedən tədbirlərin keçirilməsi davam etdirilmişdir. Belə ki, 2020-ci ildən İTS-nin ilkin mərhələdə tətbiq olunacağı regionların 23-də (Mingəçevir şəhərində, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında) və ikinci mərhələdə tətbiq olunacağı 21 regionun 7-də (Gəncə şəhərində, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy və Daşkəsən rayonlarında) noyabr və dekabr ayları ərzində müvafiq görüşlər təşkil olunmuşdur. Sözügedən regionlarda ümumilikdə 38 tədbir keçirilmişdir. Tədbirlərdə ümumilikdə 9812 nəfər iştirak etmişdir.

Agentliyin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən ilk dəfə olaraq qrant müsabiqəsinə "İcbari tibbi sığorta barədə ictimai məlumatlılığın artırılmasına dair təşəbbüslər" mövzusu daxil edilmişdir.

Müsabiqədə qalib gələn 8 qeyri-hökumət təşkilatı (bundan sonra – QHT) 2019-cu ilin avqust-noyabr ayları ərzində ümumilikdə 19 region olmaqla (Bakı, Sumqayıt və Şirvan şəhərlərində, Şəmkir, Lənkəran, Lerik, Masallı, Şamaxı, İsmayıllı, Sabirabad, Zaqatala, Xaçmaz, Qax, Balakən, Ağdam, Ucar, Göyçay, Astara və Cəlilabad rayonlarında) 58 məlumatlandırıcı tədbir keçirmişdir. Tədbirlərə təxminən 2310 nəfər iştirakçı (rayon və kənd sakinləri, azsaylı xalqların nümayəndələri, özüməşğul əhali, məcburi köçkünlər, hərbçilər və onların ailə üzvləri, iqtisadçılar, media və ictimaiyyət nümayəndələri, müəllim və tələbə heyəti, mədəniyyət işçiləri, fərdi sahibkarlar, yerli QHT-lərin və icmaların nümayəndələri, tibb işçiləri və azadlığa buraxılmağa hazırlaşan məhkumlar) qatılmışdır. QHT-lər tərəfindən aparılan uğurlu və səmərəli layihələr növbəti dəfə qrant müsabiqəsinin elanını zəruri etmişdir və "Regionlarda əhalinin icbari tibbi sığorta haqqında maarifləndirilməsi" mövzusu Şuranın 2019-cu ilin 20 noyabr tarixində elan etdiyi qrant müsabiqəsinə daxil edimişdir.

Hesabat ilinin ortalarında "SIĞORTALI OL, SAĞLAM YAŞA!" sloqanı altında Bakı şəhərində 20, 25 regionda isə (Sumqayıt və Gəncə şəhərlərində, Şəmkir, Ağstafa, Tovuz, Qəbələ, Şəki, Zaqatala, Oğuz, Qax, Quba, Qusar, Xaçmaz, Şamaxı, Şirvan, Sabirabad, İsmayıllı, Ağcabədi, Zərdab, Ucar, Kürdəmir, Beyləqan, İmişli, Biləsuvar və Astara rayonlarında) 33 reklam lövhəsi quraşdırılmışdır. Bakı Metropoliteninin 18 stansiyasında, vaqon pəncərələrində, pilləkənlərdə və

eskalatorlarda 40 poster, eləcə də paytaxtın 5 avtobus dayanacağında posterlər vurulmuşdur.

### 6.2. Ağdaş rayonunda ümumi əhali arasında sorğu

Agentlik Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 fevral tarixli 1830 nömrəli Fərmanı ilə təsdiq edilmiş tədbirlər planına əsasən pilot ərazilərdə əhali məmnuniyyətinin ölçülməsi məqsədilə 2018-ci ilin aprel-may aylarında sorğular keçirmişdir. Ağdaş rayonunda sorğu keçirilən vaxt İTS-nin yeni tətbiq edildiyini və yerli əhalinin bu sistem barədə az məlumatlı olduğunu nəzərə alaraq, bəzi parametrlər üzrə respondentlərin fikri öyrənilməmişdir. Beləliklə sözügedən rayonda yenidən sorğunun keçirilməsi zərurəti yaranmışdır və 2018-ci ilin dekabr ayında yenidən "İcbari tibbi sığorta sisteminin Ağdaş rayonunda tətbiqinə dair ümumi əhalinin məmnunluğunun qiymətləndirilməsi üzrə sosioloji sorğu" aparılmışdır. Sorğu vasitəsilə respondentlərin İTS-nin tətbiqi haqqında məlumatlılıq səviyyəsi, sistemin tətbiqinə münasibəti, sistem çərçivəsində göstərilən tibbi xidmətlərdən məmnunluq səviyyəsi, ödənişsiz tibbi xidmətlərə əlçatanlığı və sair öyrənilmişdir.

2018-ci ilin sonunda keçirilmiş sorğunun nəticələri əsasında 2019-cu ilin əvvəlində analitik hesabat hazırlanmışdır. Hesabatda 2018-ci ilin əvvəlində keçirilmiş və İTS-nin tətbiqindən əvvəlki dövrü əhatə edən (2017-ci il, 12 ay) sorğunun nəticələri 2018-ci ilin sonunda keçirilmiş sorğunun nəticələri ilə müqayisəli şəkildə təqdim olunmuşdur.

Sorğunun nəticələrindən məlum olmuşdur ki, Ağdaş rayon sakinlərinin əksəriyyəti İTS-nin tətbiqinə müsbət münasibət bildirmişdir (85.1%). Sistem çərçivəsində göstərilən tibbi xidmətlərdən və onların keyfiyyətindən məmnunluq da yüksək səviyyədədir:

Tibbi xidmətlərdən məmnunluq




Tibbi xidmətlərin keyfiyyətindən məmnunluq




İTS-nin tətbiqindən sonra tibbi xidmətlər əldə etmək üçün maddi sıxıntı keçirən respondentlərin sayı da kəskin şəkildə azalmışdır. Məsələn, cərrahi əməliyyat olunan respondentlərin keçirdikləri maddi sıxıntı sistemin tətbiqindən sonra əhəmiyyətli dərəcədə aşağı enmişdir:

İTS-nin tətbiqindən əvvəlki və sonrakı dövrlərdə maddi sıxıntı




## 7. Vətəndaş müraciətlərinə baxılması

2019-cu ildə Agentlik tərəfindən vətəndaşların müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilmişdir.

İl ərzində Agentliyə 938-i ərizə, 437-si şikayət və 18-i təklif xarakterli (ümumilikdə 1393) yazılı müraciət daxil olmuşdur. Müraciətlərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

| **Daxil olan müraciətlərin mövzuları** | **Say** | **Faizlə** |
|---|---|---|
| Ümumi: | 1393 | |
| o cümlədən, | | |
| Müayinə və müalicə, cərrahiyyə əməliyyatı, dərman təminatı haqqında | 733 | 52,6% |
| Xəstəxanaların vəzifəli şəxslərindən, həkimlərdən, tibb personalından, göstərilmiş tibbi xidmətlərdən, pul, ödəniş tələb olunmasından şikayət haqqında | 118 | 8,5% |
| İş və əmək münasibətləri haqqında | 185 | 13,3% |
| Əlillik məsələləri haqqında | 311 | 22,3% |
| İTS-nin tətbiqi, sığorta haqları, sığortalı olmadığına dair arayışın verilməsi haqqında | 33 | 2,4% |
| Digər | 13 | 0,9% |

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilən vətəndaşların sayı 283 nəfər təşkil etmişdir. Vətəndaşların 45-i pilot ərazilərdə səyyar qaydada qəbul edilmişdir. Qəbullarda vətəndaşlar tərəfindən qaldırılmış məsələlər əsasən tibbi sərfin qarşılanması, əlillik dərəcəsinin təyin edilməsi, işlə təmin olunma, müayinə, müalicə, cərrahiyyə əməliyyatı və dərman təminatı ilə əlaqədar olmuşdur.

Agentliyə vətəndaşlardan telefon vasitəsilə edilmiş 2416 müraciət müvafiq qaydada qeydiyyata alınaraq cavablandırılmışdır. Müraciətlərin 33%-ni (794 müraciət) İTS-nin 2020-ci ildən ölkə üzrə mərhələli tətbiqi və sığorta haqları, müvafiq qanunvericiliklə bağlı sorğular təşkil etmişdir. Qalan 1622 müraciət isə şikayət xarakterli olmuş və onların 25%-i müsbət həll olunmuşdur.

Müraciət etmək imkanlarının artırılması məqsədilə Agentliyin rəsmi internet səhifəsində vətəndaşlar üçün xüsusi bölmə yaradılmışdır. Bölmədə vətəndaşların qəbulu cədvəli, vətəndaşların müraciətlərinə dair qanunvericilik aktları yerləşdirilmiş, habelə onların elektron qaydada müraciət göndərmələri və aidiyyəti vəzifəli şəxsin qəbuluna yazılmaları təmin edilmişdir.

## 8. Beynəlxalq əməkdaşlıq

### 8.1. Layihələr

2019-cu ildə Agentlik beynəlxalq əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri həyata keçirmişdir:

- 3-6 dekabr tarixlərində Ümumdünya Səhiyyə Təşkilatı (bundan sonra – ÜST), Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Agentliyin birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində və Siyəzən rayonunda fəaliyyət göstərən tibb müəssisələrinin 65 həkim və orta tibb heyəti üçün "Qeyri-infeksion xəstəliklərin idarəolunması" mövzusunda təlimlər keçirilmişdir. İştirakçılar qeyri-infeksion xəstəliklərin ilkin səhiyyə xidməti səviyyəsində idarəolunması üzrə məlumatlandırılmışdır. ÜST iştirakçıları stetoskop, tonometr və qlükometrlərlə təmin etmişdir. Təlim ÜST-ün həyata keçirdiyi ilkin səhiyyə xidmətinin gücləndirilməsi layihəsinin əsas komponentlərindən biridir.
- Noyabr və dekabr ayları ərzində ÜST, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Agentliyin birgə təşkilatçılığı ilə "Yenidoğulmuşların reanimasiya şöbələrindəki avadanlıqlardan istifadə qaydasının təkmilləşdirilməsi" mövzusunda regionlarda həkim-neonatoloq və tibb bacılarına təlimlər keçirilmişdir. Təlimlərdə iştirakçılar yenidoğulmuşlara vaxtında, keyfiyyətli ilkin və reanimasiya yardımının göstərilməsi, həyati vacib orqan və sistemlərin funksiyalarının bərpası ilə bağlı metodik tövsiyələrin verilməsi, o cümlədən tibbi avadanlıqlardan düzgün istifadə qaydaları haqqında məlumatlandırılmışdır.
- Agentlik ilə Birləşmiş Millətlər Təşkilatının Uşaqlara Yardım Fondunun (bundan sonra – UNICEF) birgə icrasına başladığı "Körpə Dostu Klinikası" təşəbbüsü çərçivəsində 23-25 iyul, 31 iyul-2 avqust tarixlərində Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon Mərkəzi Xəstəxanalarının həkim və orta tibb heyəti üçün "Körpə dostu klinikasında ana südü ilə qidalandırmanın dəstəklənməsi və təşviqi" mövzusunda təlim keçirilmişdir. Həmçinin 18-21 iyun tarixlərində həmin xəstəxanalarının tibb işçiləri üçün "Körpə və erkən yaşlı uşaqların qidalanması" mövzusunda növbəti təlim keçirilmişdir.
- UNICEF ilə əməkdaşlıq çərçivəsində "Ana və Uşaq Sağlamlığı üzrə SMS maarifləndirmə" pilot layihəsi həyata keçirilmişdir. İl ərzində Mingəçevir şəhərindəki Ailə Sağlamlıq Mərkəzlərində qeydiyyatdan keçən və SMS almağa razılıq verən 524-dən çox hamilə qadına hamiləliyin ilkin vaxtlarında zəruri müayinələrdən keçmək, müvafiq pəhriz, həftələr və trimesterlər üzrə körpənin ana bətnindəki inkişafı və doğumdan sonra ana südü ilə qidalanmasının əhəmiyyəti barədə 61 SMS-lik maarifləndirmə paketi təqdim edilmişdir.

### 8.2. Beynəlxalq təcrübənin öyrənilməsi

İTS sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2019-cu ildə Agentliyin əməkdaşları bir sıra ölkələrə səfər etmişlər. Səfərlər zamanı səhiyyə sisteminin təşkili, maliyyələşməsi, hesabatlılığı və monitorinqi, ilkin səhiyyə xidmətinin təşkili, səhiyyəyə ayrılan maliyyə resurslarından səmərəli istifadə mexanizmləri və tibbi sığorta sisteminin təşkili, tibbi

xidmətlərin planlaşdırılması, dərman vasitələri ilə təchizat, tibb müəssisələri və tibbi xidmətlərin keyfiyyətinə nəzarət və müvafiq informasiya texnologiyalarının tətbiqi sahələrində həmin ölkələrin təcrübəsi öyrənilmişdir.

Səfərlərlə yanaşı Agentliyin nümayəndələri bir sıra ölkələrin qurumları ilə görüş keçirmiş və əməkdaşlıq imkanlarını müzakirə etmişlər. Görüşlərin bəziləri aşağıda qeyd olunmuşdur:

- 23-27 iyun tarixlərində Agentliyin nümayəndə heyəti Koreya Respublikasına səfər etmişdir. Səfər zamanı heyət üzvləri Koreya Respublikasının tibbi sığorta sistemi, sistemin ümumi təşkili, tibbi xidmətlərin göstərilməsi, tibbi sığorta sahəsində informasiya texnologiyalarının tətbiqi və mövcud monitorinq mexanizmləri ilə tanış olmuşlar. Səfərdən sonra isə noyabr ayında Agentliyin digər əməkdaşları Koreya Respublikasının Tibbi Sığortanın Monitorinq və Qiymətləndirmə Xidmətində təlimdə iştirak etmişlər.
- 30 oktyabr tarixində Agentlikdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının nümayəndə heyəti ilə görüş keçirilmiş və ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlar müzakirə edilmişdir. Görüşün davamı olaraq Agentlik və TƏBİB-in rəhbərliyi də daxil olmaqla ölkəmizin nümayəndə heyətinin Birləşmiş Krallığa səfəri nəzərdə tutulmuşdur.
- 7 noyabr tarixində Agentlikdə Türkiyə Respublikası Sosial Müdafiə Qurumunun (bundan sonra – SMQ) nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə SMQ nümayəndələri Türkiyə Respublikasının dövlət tibb müəssisələri, universitet və özəl xəstəxanaları ilə müvafiq müqavilələrin bağlanması və tibbi-iqtisadi ekspertizanın həyata keçirməsi istiqamətində Agentliyə dəstək verəcəklərini bildirmişlər.

## 9. İnkişaf perspektivləri

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa əsasən İTS-nin 2020-ci ildən ölkə üzrə mərhələli tətbiqi nəzərdə tutulur. Bununla bağlı Agentlik tərəfindən müxtəlif sahələri (informasiya texnologiyaları, qeydiyyat sistemi, insan resursları və sair) əhatə edən bir sıra hazırlıq işləri həyata keçirilmişdir.

### 9.1. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə hazırlıq işləri

Pilot layihənin nəticələrini və xarici ölkələrin təcrübələrini nəzərə alaraq, müvafiq İTS platforması hazırlanmışdır. Platformanın digər aidiyyəti dövlət qurumlarının İT sistemlərinə inteqrasiyası təmin olunmuşdur.

Vətəndaşlara aid İTS və tibbi məlumatların onlar üçün daha əlçatan və təhlükəsiz olması məqsədilə “myGov” platformasında şəxsi kabinetlər hazırlanmışdır. Şəxsi kabinetlərə giriş yalnız asanloginlə mümkündür.

Tibb müəssisələrinin idarəolunması, habelə onlara müraciət edənlərin İTS və tibbi məlumatlarının proqram təminatına daxil edilməsi üçün Xəstəxanaların İdarəolunması Sistemi alınmış və TƏBİB-in tabeleyinə verilən tibb müəssisələrində qurulmuşdur. Sistemin istifadəsini təmin etmək məqsədilə tibb müəssisələrinin əməkdaşlarına təlimlər keçirilmişdir. Belə ki, qeydiyyatı aparacaq 240-dan çox əməkdaş (qeydiyyatçılar) seçilmiş, onlara vətəndaşların ilkin qeydiyyatı, tibbi məlumatların əlavə olunması, stasionar xidmət üzrə qeydiyyat, təcili və təxirəsalınmaz tibbi yardım xidməti üzrə qeydiyyat, laborator və instrumental diaqnostika, anbar modulu və maliyyə ödənişləri üzrə ayrı-ayrılıqda təlimlər keçirilmişdir. Təlimlərdən sonra əməkdaşların fəaliyyətini izləmək üçün statistik platforma hazırlanmış, onların və tibb müəssisələrinin fəaliyyəti üzrə dəyərləndirmə aparılmışdır.

İTS-nin ölkə üzrə mərhələli şəkildə tətbiqini nəzərə alaraq, prioritet olan 140-dan çox tibb müəssisəsi işin təşkili üçün 3600-dən çox kompüter, habelə printer, barkod aparatlar və digər texniki avadanlıqlarla təmin olunmuşdur. Qeydiyyat nöqtələri təyin olunmuş tibb müəssisələrinin 120-dən çoxunda kabelləşmə işləri tamamlanmışdır. Vətəndaş müraciəti daha çox olan tibb müəssisələri optik internetlə, digərləri isə ADSL (Asymmetric Digital Subscriber Line) internetlə təmin olunmuşdur. 2019-cu ilin sonuna kimi 106 tibb müəssisəsi optik internetlə təmin olunmuşdur.

Tibb müəssisələrində baş verə biləcək insident və problemlərin tez bir zamanda həllini təmin etmək məqsədilə “helpdesk” xidməti təşkil olunmuşdur.

## 9.2. İnsan resursları üzrə hazırlıq işləri

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən TƏBİB-in tabeliyinə verilən tibb müəssisələrində işləyəcək tibb işçilərinin işə qəbulu qaydaları hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Həmçinin tibb müəssisələrinin əməkdaşlarına zəruri təlimlər keçirilmişdir:

- 2019-cu il 6, 7, 14 və 15 noyabr tarixlərində keçirilmiş insan resurslarının tənzimlənməsi üzrə təlimdə tibb müəssisələrinin müvafiq şöbələrinin rəhbər və mütəxəssisləri (ümumilikdə 45 nəfər) iştirak etmişlər. İştirakçılara Agentlik və İTS haqqında, habelə onların tibb müəssisələrinin İTS-yə keçid prosesində görməli olduqları işlər və göstərməli olduqları davranış və münasibətlər barədə məlumatlar verilmişdir.
- 2019-cu il 2 və 3 dekabr tarixlərində baş tibb bacıları (qardaşları) üçün keçirilmiş təlimə ümumilikdə 29 nəfər iştirakçı qatılmışdır. İştirakçılara onların vəzifə öhdəlikləri, işlərinin düzgün təşkili və göstərməli olduqları davranış və münasibətlər ilə bağlı həm nəzəri məlumatlar verilmiş, həm də praktiki məşğələlər keçirilmişdir.
- Agentlik tərəfindən həyata keçirilən tibb müəssisələrində laboratoriyaların standartlaşdırılması layihəsi çərçivəsində 2019-cu ilin 6 noyabr-6 dekabr tarixləri arasında 49 nəfər laboratoriya işçisi üçün nəzəri və praktiki hissələrdən ibarət olan təlim keçirilmişdir.